## Ana olmaq

Biz ata da olarıq biz qardaş da olarıq
Biz bacı da olarıq, biz yoldaş da olarıq
Biz peyğmbər olarıq, biz imam da olarıq
Biz atəşə dolanıb kül yananda olarıq
Ana ola bilmərik!

Çəkərik həsrətidə çəkərik hüsranıda
Dinər içimizin bəs bir dəm üsyanıda
Gerçək etsək xülyanı, arzunu, röyanı da
Lap çevirsək tərsinə bu qoca dünyanıda
Ana ola bilmərik!

Anasız bu həyatın payızı var, qışı var
Qarı var, yağışı var,susu var danışı var,
Görəsən bir kimsənin, Ana kimi müqəddəs
Ana kimi möhtərəm Başqa bir tanışı var?

Hər səhər övladıyçün səhərə göz açmağı niyyət edən özünə
Övladını qəlb kimi sinəsinə sıxıban
Həyat edən özünə
Saçına dən düşdükcə duman çökən gözünə
Bir ananın nəfəsində bahar olur, yaz olur
Etdiyi dualardan nə gözəl avaz olur?

Mən anasız görmüşəm, titrəyən bir övladı
Çünki isti edən də kainatı anadı
Mən anasız görmüşəm, tənha qalan övladı
Çünki övalada hər kəs ola bilən anadı.

Çox zaman unuduruq biz onu yad etməyi
Unuduruq güldürüb, könlünü şad etməyi
Artıq böyüyürük biz başqa ocağmız olur
Bir başqa ünvan olur, başqa bucağmız olur

Çoxumuz tələbəyik şəhərlər ayrı salır
Günəşi fərqli çıxan səhərlər ayrı salır
Bizlər məsul oluruq kiminsə dünyasına
Bizə yuva göstərən nəfərlər ayrı salır

Mən adımı ən şirin, ən qürrəli fəxrli

Ən MƏNli eşitmişəm, ANAMIN xitabında
Mən sevginin yolunu, qaydası qanunu
Tərifini görmüşəm, anamın kitabında

Bir gözünün yaşını siləndə bir əliylə
Bir gözündə gülüşü pay elədikcə bizə
Neçə uğur nübarlı, meyvəli diləyilə
Səadət ağacını pay verdi ailəmizə

Dostlar...
Mən ana görməmişəm mən yaralı olmuşam
Rəngarəng bəxtlər içrə mən qaralı olmuşam
Anam olmuyub deyə haralısan soranda
Mən deyə bilməmişəm mən haralı olmuşam

Heç olmuyub başımda anamın sığal izi
Damağımda nə şirin nə duzlu qoğal izi
Mən kar yaşamışam, olmuyub qulağımda
Anamın ləhçəsiylə bir parça nağıl izi

Səhər ata səsinə oyanmışam yuxudan
Ən şirin yuxuların qəfildən ortasında
Atam iş adamıydı o səbəbdən heç zaman
Bir kimsəm oturmuyub valideyn iclasında

Nədi, ey qoca dünya? Daha nə var almalı
Əlimdə nəyim var ki, nəyi ala bilərsən
Əgər min nemət verdin,vermədiyin qalmadı
Mən heç nə istəmirəm..
Bu yaralı ruhuma ana ola bilərsən?

Rəşad Aslan

19.12.2018 02:05

Son değiştirilme tarihi: 21 Ara 2018